# ÜZEYİR HACIBƏYLİNİN "KOROĞLU"SU ZEMFİRA QAFAROVANIN TƏQDİMATINDA

*Səadət TƏHMİRAZQIZI*

*Zemfira Qafarovanın kitabının nəşrinin çox məqsədəuyğun və vacib olduğunu hesab edirəm. Belə ki, Üzeyir Hacıbəyli haqqında, xüsusilə onun opera incisi - "Koroğlu" haqqında yazılmış bu dəyərli və sanballı tədqiqat işi musiqişünaslıq ədəbiyyatını zənginləşdirəcək.*

***TOFİQ QULİYEV***
***Xalq artisti***




Unudulmaz bəstəkarımız Tofiq Quliyevin bu dəyərli fikirləri tanınmış musiqişünas-alim Zemfira Qafarovanın kitabına yazılmış "Ön söz" dəndir. Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova 1980-ci illərdə bu tədqiqat işini rus dilində qələmə almış və kitab şəklində nəşr etdirmişdir. Qeyd etməliyik ki, həmin dövrdə bu kitab Üzeyir bəyin "Koroğlu" operası haqqında çox dəyərli tədqiqat işi olaraq həqiqətən də Azərbaycan musiqi elminə bir töhfə oldu. Kitab haqqında söylənilən rəylər, yazılan resenziyalar bizim fikrimizi təsdiq edə bilər. Düzdür, Zemfira xanıma qədər Üzeyir bəyin "Koroğlu" operasına bir neçə musiqişünaslar müraciət etmişlər. Məsələn, Qubad Qasımov, Əşrəf Abbasov, Xurşid Ağayeva, Zemfira Səfərova və digər tədqiqatçılar bu əsərin tarixi və taleyi, onun Azərbaycan musiqi sənəti tarixindəki yeri və əhəmiyyəti barədə maraqlı tədqiqatlar üzə çıxarıblar. Amma Zemfira Qafarova da öz araşdırmalarına rəğmən əsərə fərdi təfəkkür tərzi ilə yanaşaraq sanballı bir tədqiqat işi meydana gətirib. Doğrudan da bu tədqiqat işi musiqişünaslar üçün dəyərli bir mənbədir. Bu işin ən böyük dəyəri odur ki, burada dahi sənətkarın elə dahi bir əsərindən bəhs olunur. Əgər tədqiqatçı bu işdə uğur qazanıbsa, demək bu da onun Üzeyir bəy irsinə olan sevgisinin, bilgisinin, yüksək səviyyəli elmi və bədii təfəkkürünün və bu kimi ali keyfiyyətlərə malik olmasının ifadəsidir. Bu cəhətləri özündə cəm edən Zemfira Qafarova həm Üzeyir bəy irsinə daha bir töhfə bəxş etmiş, həm də bir musiqişünas-alim kimi öz dəyərini təsdiqləmişdir. Çünki Zemfira Qafarovanın bir musiqişünas-alim, pedaqoq, lektor, ictimai xadim kimi Azərbaycan musiqi sənəti və musiqi elminin inkişafında müstəsna xidmətləri var. Azərbaycan, qərb və rus musiqisi tarixinə dərindən bələd olan Zemfira xanım bu istiqamətlərdə mükəmməl fikir və düşüncələrini elmi əsaslarla izah edərək maraqlı tədqiqatlara nail olub. Onun fəaliyyəti həqiqətən də Azərbaycan musiqinaslığının mühüm bir şaxəsidir. Bu mənada tədqiqatçının Üzeyir bəy irsinə müraciəti bütün dövrlər üçün çox aktualdır. Odur ki, 2017-ci ildə bəstəkarın şah əsəri olan "Koroğlu" operasının yaranmasının 80 illiyinə bir töhfə olan "Üzeyir Hacıbəylinin "Koroğlu"su" kitabını Zemfira Qafarovanın Azərbaycan musiqişünaslığına da töhfəsi kimi dəyərləndirmək olar (**Bakı, "Renessans - A", 2017**). Bu eyni zamanda gənc musiqişünaslar üçün də bir örnəkdir.

Müəllif bir vaxtlar öz elmi işi kimi təqdim etdiyi və rus dilində nəşr olunan kitabını azərbaycan dilinə tərcümə edərək həm də Üzeyir bəy irsi haqqında sanki yeni bir ədəbiyyat yaratdı.

Əziz oxucular, indi isə kitabın içindəkilərə qısa bir nəzər salaq:

Qeyd etdik ki, kitaba "Ön söz"ü xalq artisti Tofiq Quliyev yazmışdır. "Giriş" bölməsində müəllif Üzeyir Hacıbəylinin Azərbaycan və dünya musiqisi tarixindəki rolunu və əhəmiyyətini tədqiq edərək öz fikir və mülahizələrini bildirir. Bu məqsədlə Üzeyir bəyin xidmətlərindən, onun Avropa musiqi texnikası ilə milli musiqi intonasiyalarını qovuşdurmaq bacarığından, bu sintez əsasında yazdığı əsərlərdən bəhs olunur. Bu bölmədə həm də sovet məkanında digər xalqların bəstəkarlarının şərq musiqisindən istifadə məsələlərinə də toxunulur. Bir sözlə "Giriş" bölməsi müəllifin Azərbaycan, rus və qərb musiqisi barədə geniş təsəvvürünün nəticəsi və bu istiqamətdə Üzeyir Hacıbəyli irsinin təhlilidir.

Növbəti bölmələr isə sırf Üzeyir Hacıbəylinin "Koroğlu" operasına həsr olunub. Bir qədər bu bölmələrə də nəzər salaq:

""Koroğlu"ya gedən yol" - Müəllif bu bölmədə Üzeyir bəyin opera janrına müraciətinin əsas məziyyətlərindən bəhs edir, kitabdan sitat:

"Hacıbəylinin operaya olan marağı XX əsrin əvvəllərində milli bəstəkarlıq məktəbinin sosial əhəmiyyətli ideyalara, vətəndaşlıq mövzularına, qəhrəmanlıq obrazlarına meyl etməsi ilə bilavasitə bağlı idi" (kitabdan. Səh 14).

Bu fikri daha da genişləndirən müəllif Üzeyir Hacıbəylinin opera yaradıcılığını təhlil edərək onun "Koroğlu"ya qədər qələmə aldığı əsərlərindən geniş şəkildə bəhs edir.

Məlumdur ki, "Koroğlu" dastanı Yaxın və Orta Şərq xalqları ədəbiyyatının mühüm bir şaxəsini təşkl edir. Bu məsələni nəzərdən qaçırmayan müəllif operaya keçməzdən əvvəl həmin məxəzlərə baş vurur. Odur ki, kitabda ikinci bölmə də məhz belə adlanır: ""Koroğlu" eposu və operanın librettosu" - Müəllif bu bölmədə geniş tədqiqatlar apararaq oxucuya Koroğlu eposu, onun ilk əlyazmaları, oradakı mahnılar, əfsanə və əsatirlər və bu kimi digər məsələlər barədə məlumat verir. Bu tarixi məlumatlardan sonra isə Üzeyir bəyin "Koroğlu" operasının librettosundan söhbət açılır. Librettonun yazılmasında iştirak edən görkəmli dramaturq M.S.Ordubadi, ədəbiyyatşünas Heydər İsmayılovla yanaşı Üzeyir bəyin də bu işdə yaradıcı fəaliyyətindən bəhs olunur. Librettonun "Koroğlu" dastanı ilə müqayisəli tərəflərinə istinad edilir.

Növbəti bölmə - "Operanın ideya məzmunu" adlanır. Burada müəllif dünya musiqisi tarixinə müraciət etməklə tarixi mövzuya bəstəkarların hansı aspektdən yanaşmalarını şərh edir. Bu mənada Üzeyir bəyin də tarixi mövzunun işlənməsinə münasibətindən və yaranan əsərin ideyasının musiqidə təzahüründən söhbət açır.

Ümumiyyətlə, Zemfira Qafarova "Üzeyir Hacıbəylinin "Koroğlu"su" kitabında bəstəkarın irsinin və "Koroğlu" operasının hərtərəfli təhlilinə geniş yer vermişdir. Bu məqsədlə müəllif "Operanın janr təbiəti", "Operanın musiqi dramaturgiyasının quruluş xüsusiyyətləri", "Koroğlu"nun musiqi formaları", ""Koroğlu"nun üslub xüsusiyyətləri" adlı bölmələrdə sərlövhələrə uyğun mövzuları dərindən bütün təfərrüatları ilə təhlil edir.

Zemfira xanım bu ətraflı və dolğun təhlilləri, apardığı dərin tədqiqatları ilə bir daha Üzeyir Hacıbəyli irsinin dünya musiqisi ilə qarşılıqlı vəhdəti və onun dünya musiqi tarixinin inkişafındakı rolunu, əhəmiyyətini mühüm faktlarla şərh etmişdir.

Bu təhlilləri və yazı texnikası ilə Zemfira xanım bir musiqişünas kimi həm də öz üslubunu yaratmışdır. Bu üsluba müəllifin qarşıya qoyduğu məqsədin həyata keçirilməsi üçün mövzunu dərindən təhlil etmək bacarığı, həmin təhlilləri həm geniş oxucu auditoriyasına, həm də peşəkarlara rəvan və aydın dillə çatdırmaq kimi vacib amillər daxildir. Məhz bu məziyyətləri ilə Zemfira Qafarova Azərbaycan musiqişünaslığında öz yeri, öz dəsti-xətti olan simalardandır. O, yalnız bu kitabı ilə deyil, digər araşdırmaları və kitabları, radio və televiziyada, mətbuat səhifələrində, elmi konfranslardakı çıxışları, çoxillik pedaqoji təcrübəsi - bir sözlə geniş fəaliyyəti ilə öz mənalı ömrünü Azərbaycan musiqi elminin inkişafına həsr edib. Bu xidmətlərinə görə də onu Üzeyir bəy ənənələrinin davamçısı hesab edirik. Necə ki, "Koroğlu" operası Üzeyir bəyin şah əsəri sayılır, eləcə də Zemfira Qafarovanın "Üzeyir Hacıbəylinin "Koroğlu"su kitabı"nı onun bir musiqişünas-alim kimi yaradıcılığının əsas qayəsi hesab edə bilərik. Bu kitab Zemfira xanım tərəfindən həm Üzeyir irsinə, həm də nəsillərə ən gözəl töhfədir.